Azad Azərbaycan

06 may 2021-ci il №31 (3686)



# Müdrik rəhbərin dühası

*Əbədiyaşarlığı ilə bəşər tarixinə daxil olmuş ulu öndər Heydər Əliyev müasir Azərbaycanın qurucusu və banisidir*



**Ulu öndərimiz, müasir dövlətimizin qurucusu və banisi Heydər Əliyev əbədiyaşarlığı ilə xalqımızın, türk dünyasının tarixinə əbədi daxil olmuşdur. Azərbaycan xalqı Ulu Öndərin dühasının böyüklüyünü respublikamıza rəhbərlik etdiyi 30 ildən artıq bir dövrdə daim hiss etmişdir.**

Müstəqil dövlətimizin qurucusu və banisi Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş, sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) memarlıq fakültəsində oxumuş, başlanan müharibə onun təhsilini yarımçıq qoymuşdur. 1941-1944-cü ülərdə Naxçıvanda Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində məsul vəzifələrdə çalışan Heydər Əliyev 1944-cü ildən Dövlət Təhlükəsizlik orqanlarında işə göndərilmişdir.

Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifələrində işləmiş, general-mayor rütbəsinə yüksəlmişdir. Həmin illərdə Leninqrad (İndiki Sankt Peterburq) şəhərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri kimi qaynar fəaliyyət dövrünə qədəm qoymuşdur.

1982-ci ildə Sov.İKP MK Siyasi Bürosuna üzv seçilən Heydər Əliyev həmin ildən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Dünya dövlətlərinin böyük siyasi liderlərinin qeyd-şərtsiz yüksək siyasətçi kimi qəbul etdiyi Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ-nin üzdəniraq rəhbəri Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev xalqının taleyüklü məsələləri ilə bağlı tərəddüd etmədən, hətta bütün həyatını həsr etdiyi siyasi fəaliyyət və karyerasından belə keçməyə hazır olduğunu 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciənin ertəsi günü bir daha sübut etmişdi. Həyatının təhlükədə olduğunu bilsə də, özünəməxsus cəsarət və qətiyyət nümayiş etdirərək Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək xalqımıza qarşı törədilən cinayətin təşkilatçılarını ifşa etdi, onların cəzalandırılmasını tələblə bildirdi. Heydər Əliyev 1991-ci ildə Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü və mənfur siyasətinə etiraz əlaməti olaraq Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdi.

**Yaxın tariximiz sübut etdi ki, Heydər Əliyev nəinki Azərbaycanın bu ağır dövründə qarşıda duran ziddiyyətli və mürəkkəb vəzifələrin öhdəsindən gələ bildi, hətta xaos və daxili çəkişmələr ləğv edildi, iqtisadi və mədəni yüksəliş başladı. Bir Azərbaycan vətəndaşı olaraq bir anlığa düşünsək ki, biz artıq müasir tariximizin ən şərəfli səhifələrindən birinə çevrilmiş Heydər Əliyevin çoxşaxəli fəaliyyətində hansı istiqamət daha çox diqqətəlayiqdir. Yəqin ki, bütün istiqamətlər deməliyik. Bu istiqamətlərin ana xətti isə xalqın təmənnasız xidmətinə birləşirdi - müstəqil dövlət quruculuğuna yönəlirdi.**

SSRİ dönəmində Azərbaycana rəhbərlik edərkən Heydər Əliyev əsas fəaliyyəti, əlbəttə daxili siyasət istiqamətində qurdu. Azərbaycan xalq təsərrüfatının bütün sahələrinin sabit və davamlı inkişafını təmin etdi. Digər müttəfiq respublikalarla müqayisədə Azərbaycan 1969-1982-ci illərdə həyatının bütün sahələrində daha çox uğurlar qazandı. Respublikanın iqtisadi potensialı artdı, yeni sənaye sahələri yaradıldı, təhsil və səhiyyə sahəsində elmi-praktik layihələr həyata keçirildi. Bu dövrdə Heydər Əliyevin bilavasitə adı ilə bağlı olan 250-dən çox zavod, fabrik, istehsal sexləri istifadəyə verilmiş, 630 min yeni iş yeri açılmışdı.

1975-ci ildə Heydər Əilyev Bakıda Məişət Kondisionerləri zavodunun tikilməsinə nail oldu. Minlərlə məktəb, xəstəxana, kitabxana, klub və istirahət evi tikildi. Bakı, Sumqayıt, Gəncə şəhərləri böyüdü, tikinti böyük vüsət aldı. Badamdar, Hövsan, Əhmədli, Günəşli kimi geniş yaşayış massivləri salındı.

Böyük siyasi uzaqgörənliklə Heydər Əliyev Dağlıq Qarabağın inkişafını diqqətdə saxlayır, bu bölgənin iqtisadiyyatının canlandırılmasına xüsusi fikir verirdi. Məhz bu ağıllı siyasətin nəticəsi olaraq ermənilərin 1977-ci ildə Dağlıq Qarabağ məsələsini yenidən qaldırmaq cəhdlərinin qarşısı alındı. Erməni fitnəkarlığı Kəlbəcərdə puça çıxdı. Kəlbəcərə yeni "Muğan yolu" çəkildi.

Neftin Azərbaycan iqtisadiyyatı və bütövlükdə respublikanın yaşam varlığı üçün çox əhəmiyyətli olduğunu hamıdan daha aydın dərk edən Heydər Əliyev neft zavodlarının yenidən qurulması, yeni zavodların və mədənlərin yaradılması, dənizdə neft çıxarılması sahəsində çox böyük işlər gördü. Dərin Dəniz Özülləri zavodu və Cənubi Qafqazda ən iri Poladtökmə zavodu tikildi. Neftmaşınqayırma sahəsində Azərbaycan ABŞ-dan sonra dünyada ikinci yerə çıxdı. Qroznı-Bakı neft kəməri istifadəyə verildi. Digər sənaye sahələri inkişaf etdirildi. Bakıda "Ulduz" elektrik cihazqayırma, "Ozon", Sumqayıtda Məişət Kompressor zavodları tikildi. Tərtər, Şəmkir, Naxçıvanda Araz Su Elektrik Stansiyaları işə salındı, Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

**Əhalinin böyük bir hissəsinin kənd təsərrüfatı ilə məşğul olduğunu nəzərə alan Heydər Əliyev Azərbaycanda texniki imkanlarla təmin olunmuş sovxoz və kolxozların fəaliyyətinə ciddi diqqət ayırırdı. Pambıqçılıq, üzümçülük, tütünçülük inkişaf edir, suvarma kanalları və dəryaçalar yaradılırdı. Nəqliyyatın inkişafına xüsusi diqqət yetirilirdi. 70-80-ci illərdə respublikada 6 min km. şosse, 260 km. dəmiryol xətti çəkilməsinə nail olunmuşdu. Bakı-Böyük Kəsik və Bakı-Yalama dəmir yolu xətləri elektrikləşdirilmişdi. Sosial sahənin inkişafı o dövrdə də ulu öndərin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edirdi.**

İnsanlara qayğı, onların yaşayış və əmək şəraitinin yaxşılaşdırılması Heydər Əliyev daxili siyasətinin əsas məqsədlərindən biri idi. Dəniz vağzalı, indiki Heydər Əliyev adına Respublika Sarayı, "Moskva" Mehmanxanası, Gülüstan sarayı, yeni metro tikintiləri Heydər Əliyevin 70-ci illərdə respublikaya rəhbərliyi dövrünün nümunələridir. 1971-ci ildə Kursu kəməri, 1982-ci ildə Sabirabadda iri su təchizatı sistemi istifadəyə verildi. Mərkəzdən göstərilən maneələrə baxmayaraq Heydər Əliyev Azərbaycanda quruculuq işlərini davam etdirir, yeni sahələrin inkişafına çalışırdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi proseslərinin hazırkı möhkəm təməli ulu öndər tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Bütövlükdə Azərbaycan xalqının mədəniyyətinə və tarixinə dərindən bələd olan Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə təhsilin inkişafina əvəzsiz töhvələr vermiş milli kadrların hazırlanmasını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir.

Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1971-ci ildə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbin açılması, milli hərbi kadrların hazırlanmasında müstəsna rol oynadı. Təhsilin ruslaşdırılması, tarixin saxtalaşdırılması istiqamətində imperiyanın fəaliyyətini məhdudlaşdıran Heydər Əliyev Azərbaycandan kənarda yüksək ixtisaslı kadrlar hazırlanması istiqamətində dövlət səviyyəsində böyük işlər gördü. Azərbaycanın elə bir guşəsi, kəndi, qəsəbəsi, rayonu, şəhəri yoxdur ki, orada Heydər Əliyevin izi, əl işi olmasın. Elmə, mədəniyyət xadimlərinə böyük dıqqət və qayğı onların yubileylərinin keçirilməsi, yeni mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi bütün dönəmlərdə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur.

**1976-cı ildə Azərbaycan Sovet Ensiklopediyasının nəşrinə başlandı.**

"Mən müəllim adından yüksək ad tanımıram" kəlamı Heydər Əliyevin böyüklüyünü bir daha göstərdi. Azərbaycanın gələcəyini məhz yüksək təhsil görmüş gəncliyimizdən asılı oluduğunu dəfələrlə vurğulayan ulu öndər yaradıcı insanlara, rəssam və musiqiçilərə, şairlərə və teatr xadimlərinə böyük qiymət verirdi.

1970-ci ildən Bakıda "Sovet türkologiyası" jurnalı çap olunmağa başladı. "Xalqın özünüdərk, milli dirçəliş proseslərində "Qobustan" incəsənət almanaxı ılə "Ulduz" jurnalı mühüm rol oynadı. Heydər Əliyevin qayğısı sayəsində yeni kinofilmlər, tarixi ekran əsərləri yaradıldı.

Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi vaxtlarda özünü xüsusilə parlaq təzahür etdirdi.

O, ümumittifaq və dünya miqyasında yüksək nüfuza malik idi. Ölkələrdə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasında böyük rol oynaması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi. Onun nüfuzu artdıqca bədxahları və düşmənləri də çoxalırdı. Bunu böyük Heydər Əliyev də bilirdi, lakin öz başladığı işlərdə və tutduğu yoldan dönməz idi.

Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmət göstərmişdi.

**Azərbaycana rəhbərliyinin birinci dövründə, yəni 1969-1982-ci illərdə xalq təsərrüfatı və mədəni quruculuğa dair uzunmüddətli və ardıcıl fəaliyyət proqramı hazırlayıb, onun həyata keçirilməsinə yüksək bacarıqla rəhbərlik edən Heydər Əliyev həm də bu günkü iqtisadi inkişafın təməlini, mədəni yüksəlişin əsaslarını möhkəmləndirdi. Türk-müsəlman xalqına qarşı ayrıseçkiliyin həyata keçirildiyi şəraitdə SSRİ kimi nəhəng bir dünya dövlətinin rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir.**

Azərbaycanın milli maraqlarına dönmədən xidmət edən Heydər Əliyev 1977-ci ildə "Azərbaycan SSR-nin yeni Konstitusiya layihəsində Azərbaycan dilinin Azərbaycan SSR-in dövlət dili olması haqqında maddənin əks olunmasına nail olmuşdur. SSRİ-nin mövcudluğu dövründə Heydər Əliyev dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, ittifaq sovetinin sədr müavini olmuş, 4 çağırış dalbadal Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi.

İlk dəfə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülən Heydər Əliyev dörd dəfə Lenin ordeni, çoxlu digər orden və medallarla təltif edilmişdir.

1970-80-cı illərdə Heydər Əliyev Sov.İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Meksika, Almaniya, Vyetnam, Koreya, Rumıniya, Yuqoslaviya, İtaliya, Misir, Suriya və Hindistana rəsmi səfərlər etmişdi. Dünyanın 30-dan çox ölkəsinə səfər etmişdir.

Heydər Əliyev dövlətçilik və siyasi fəaliyyətinin ən qaynar və şərəfli dövrü onun müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi ikinci mərhələni əhatə edir. 1993-cü ildə Azərbaycan xalqının qurtuluş müharibəsinin önünə keçən Heydər Əliyev bu mübarizəni ləyaqətlə davam etdirdi.

1993-cü il oktyabrın 10-da Azərbaycan prezidentinin andiçmə mərasimində Ulu Öndər söyləmişdi: "Belə yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

**Zaman bu sözlərin həqiqətə çevrildiyini sübut etdi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini azərbaycançılıq, müstəqillik, dövlətçilik, milli tərəqqi, ümummilli və ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.**



**Dəmir QURBANLI**